F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Həyat nəfəsli nəsr adamı - İsi Məlikzadə

**Yazıçı, dramaturq İsi Məlikzadənin 90 illik llik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2024**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Həyat nəfəsli nəsr adamı - İsi Məlikzadə**nin 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. Aynurə Əliyeva; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. Məmmədli R. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2024. – 23 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

## Giriş:

Azərbaycan xalqı zəngin mənəviyyatı, nəsillrdən-nəsillərə ötürərək qoruyub saxladığı bir çox milli xüsusiyyətləri ilə həmişə fəxr edib. Kişilik, ismət, qeyrət kimi anlayışları qədirbilənlərimiz öz şəxsiyyətlərində, əməllərində yaşadıblar, mənəviyyatımızın aşınmasına qarşı ruhuyla, canıyla mübarizə aparıblar. Yazıçı, dramaturq ssenarist İsi Məlikzadə də belələrindən idi. O, xalqına, elinə-obasına bağlı, onun ağrı-acısını öz dərdi kimi çəkən bir insan idi. Bəlkə ona görə də Qarabağ faciəsi yazıçını dərdə saldı, yaradıcılığının çiçəkləndiyi dövrdə, Azərbaycan xalqının taleyüklü Qarabağ məsələsində bir çox ziyalımız kimi İsi Məlikzadə də sarsıntı keçirdi.

İsi Məlikzadə... Azərbaycan bədii nəsrinin XX əsr də yetirdiyi söz ustalarından biri... Ədəbiyyatda heç kimə bənzəməyən, özünəməxsus fərdi deyim tərzi, yolu və üslubu olan bir sənətkar... Gözəl hekayələr müəllifi... Müasir Azərbaycan povestinin yaradıcılarından biri... Bədii nəsrində ən doğru həqiqətləri sənət dililə ifadə edən, XX əsr Azərbaycan ziyalısının, kəndlisinin obrazlarının yaradan ustad nasir... Neçə bədii filmin ssenari müəllifi...

Və nəhayət, heç vaxt xatirələrdən silinməyən, yaddaşlarda yaşayan ədib, bir sözlə, 35 illik bir yaradıcılıq yolu keçən istedadlı qələm adamı İsi Məlikzadə... İsi Məlikzadə daim düşünən, yazıb-yaradan qələm sahibi idi. Bəlkə də buna görədir ki, onun yaratdığı əsərlər bir dövrə yox, bütün dövrlərə şamil idi. Onun yaradıcılığı hər dəm aktual, real və canlıdır. Ədibin əsərlərində biz hər bir surətin özünəməxsus səciyyəsi ilə qarşılaşırıq...

İsi Məlikzadə Azərbaycan yazıçısı, dramaturq, 1968-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü. Azərbaycan ədəbiyyatına yeni qəhrəman tipi gətirmiş, "60-cılar" nəslinin görkəmli nümayəndəsidir.

Bu il tanınmış yazar İsi Məlikzadənin 90 illik yubileyi keçirilir. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə “Ömürdən bir gün də keçdi, beləcə” adlanır və ədibin həyatından bəhs edir. II hissədə isə onun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## I bölmə: Həyat və yaradıcılığı

İsi Məlikzadə 1934-cü il mayın 1-də Azərbaycanın Ağcabədi rayonunda anadan olmuşdur. Orta təhsilini Ağcabədidə Xəlfərəddin kənd orta məktəbində, ali təhsilini indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetində almışdı. "Əzizbəyovneft" mədənlər idarəsində operator, yerüstü avadanlıq ustası (1957–1961), Azərbaycan Kommunal Təsərrüfatı Nazirliyi Başqaz idarəsində böyük mühəndis, şöbə rəisinin müavini (1961–1966), "Ulduz" jurnalı redaksiyasında publisistika şöbəsinin müdiri, məsul katib (1966–1973), Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Cəfər Cabbarlı adına "Azərbaycanfılm" kinostudiyasında ssenari redaksiya heyətinin üzvü (1974–1976), "Azərbaycan" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri (1976–1980), "Ulduz" jurnalı redaksiyasında nəşr şöbəsinin müdiri (1980–1981), “Mozalan” satirik kinojurnalında böyük redaktor (1981–1983), C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında baş redaktor vəzifələrində işləmişdir (1983–1985). 5Sonra bir müddət yaradıcılıqla məşğul olmuşdur. Azərbaycan Dövlət Akademik Dram Teatrında ədəbi hissə müdiri (1988–1990) işləmişdir. Sonra ömrünün sonunadək "Azərbaycan" jurnalında publisistika şöbəsinin müdiri (1994-cü ildən), Azərbaycan Mədəniyyət Fondunun Qarabağ filialının sədri (1990-cı ildən) vəzifələrində çalışmışdır. 1995-ci il dekabrın 5-də vəfat etmişdir.

Azərbaycan bədii nəsrinin XX əsrdə yetirdiyi görkəmli söz ustalarından biri İsi Məlikzadədir. XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan İsi Məlikzadə ədəbiyyatda heç kimə bənzəməyən, özünəməxsus fərdi yaradıcılıq qabiliyyəti, üslubu ilə xalqın yaddaşından silinməyən bir sənətkardır. Əmək fəaliyyətinə neft mədənlərində operator kimi başlayan İ.Məlikzadə gənc yaşlarından həm də ədəbi yaradıcılıqla da məşğul olurdu. O, hələ orta məktəbdə təhsil alarkən təşkil olunan dram dərnəklərində fəal iştirak edər, müxtəlif dram əsərlərində fərqli obrazlar yaradar, ədəbi-bədii yaradıcılıq gecələrində şeirlər söyləyərdi. Yazıçı bədii yaradıcılığına kiçik hekayələrlə başlamışdır. Ancaq İsi Məlikzadənin bədii nəsrində-povestlərində XX əsrin 70-80-ci illərində cəmiyyəti narahat edən, düşündürən sosial-fəlsəfi problemlər qaldırılmışdır . 1964-cü ildə İsi Məlikzadənin "Həsrətin sonu" adlı ilk kitabı işıq üzü görüb. Sonrakı illərdə isə "Özgə anası" (1969), "Kövrək qanadlar" (1973), "Küçələrə su səpmişəm" (1977), "Yaşıl gecə" (1979), "Günəşli payız" (1982), "Dədə palıd" (1984), "Gümüşgöl əfsanəsi" (1987), "Şehli çəmənlərin işığı" (1991), "Dolaşaların Novruz bayramı" (1992) adlı kitabları nəşr olunub.

*Əsərləri*

Həsrətin sonu. Bakı: Azərnəşr, 1964, 44 səh.
Özgə anası. Bakı: Gənclik, 1969, 152 səh.
Kövrək qanadlar. Bakı: Gənclik, 1973, 234 səh.
Küçələrə su səpmişəm. Bakı: Gənclik, 1977, 219 səh.
Yaşıl gecə. Bakı: Yazıçı, 1979, 305 səh.
Günəşli payız. Bakı: Yazıçı, 1982, 252 səh.
Dədə palıd (povest). Bakı: Yazıçı, 1984, 413 səh.
Gümüşgöl əfsanəsi. Bakı: Yazıçı, 1987, 295 səh.
Şehli çəmənlərin işığı. Bakı: Yazıçı, 1991, 304 səh.

Dolaşaların Novruz bayramı. Bakı: Gənclik, 1992, 119 səh.
Filmoqrafiya
İsi Məlikzadənin ssenariləri əsasında bir çox bədii filmlər, o cümlədən, "Ağ atlı oğlan", "Evin kişisi", "Gəl qohum olaq", "Gümüşgöl əfsanəsi", "Kişi sözü", "Küçələrə su səpmişəm", "Qatarda", "Qoca palıdın nağılı", "Pəncərə", "Qanlı zəmi", "Güllələnmə tarixə salınır" və s. kimi yaddaqalan kino nümunələri çəkilib.

Ağ atlı oğlan (film, 1995) (tammetrajlı bədii film) — ssenarist
Alma almaya bənzər (film, 1975) (tammetrajlı bədii film) — redaktor
Altı duru, üstü quru (film, 1983)
Dua (film, 1982)
Evin kişisi (film, 1978)
Evlənmək istəyirəm (film, 1983)
Gəl qohum olaq (film, 2001)
Güllələnmə təxirə salınır!... (film, 2002)
Gümüşgöl əfsanəsi (film, 1984)
Güzgü (film, 1990)(II)
Hacı Qara (film, 2002)
Harayacan qaçacaqlar (film, 1983)
Hərənin öz payı+tayı (film, 2006)
İcazə (film, 1972)
İlişdim (film, 1983)
Kişi sözü (film, 1987)
Küçələrə su səpmişəm (film, 2004)
Qanlı zəmi (film, 1985)
Qatarda (film, 1981)
Qoca palıdın nağılı (film, 1984)
Məğlubedilməzlər (film, 1983)
Müşavirə (film, 1971)
Oktyabr və Azərbaycan (film, 1987)
Ömrün səhifələri (film, 1972)
Pəncərə (film, 1991)
Vətən mənə oğul desə (film, 1996)
Zərbə (film, 1983)

İstedadlı yazarımız İsi Məlikzadənin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər, kitab müzakirəsi, oxucu konfransı, rəsm müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Ədibi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada ilk növbədə müxtəlif başlıqlar altında kitab sərgisi təşkil olunmalıdır. “Yaradıcılıq yollarında - İsi Məlikzadə”, “Hamıya nəsib olmayan səadət”, “Onu xatırlayarkən”, “Əsrin yazarı”, “Bənzərsiz ömür yolu”, “Unudulmaz şəxsiyyət, böyük yazıçı”, “Ömrün ibrət dərsləri”, “Həyat nəfəsli nəsr adamı - İsi Məlikzadə” cə s. başlıqlar verilə bilər.

***Görkəmli şəxsiyyətlərin İsi Məlikzadə haqqında söylədikləri***

Az sözlə, kiçik bir epizodla səciyyəvi həyat hadisəsini canlandırmaq, insan xarakterinin və probleminin aydın cizgilərini çəkmək İsi Məlikzadənin yaradıcılığına xas olan xüsusiyyətdir.

Bəkir Nəbiyev (akademik)

İsi Məlikzadə bizim ədəbiyyatımızın ən parlaq şəxsiyyətlərindən və çox böyük yazıçılarından biri idi. "Dədə palıd", "Quyu", "Evin kişisi" və başqa kitablarında, onun əsərlərində böyük müşahidə qabiliyyəti, həm də böyük yazıçılıq istedadı görünürdü. Yazıçılar Birliyi ən yaxşı hekayələr üçün İsi Məlikzadə adına mükafat təsis edib və hələ də o mükafat təqdim olunur.

Anar (xalq yazıçısı)

Dünyada elə nəcib və təvazökar adamlar var ki, özünü gözə dürtmədən, haysız-həşirsiz, səssiz-küysüz başını aşağı dikib, boynuna düşən vəzifəni namusla yerinə yetirir. İsi Məlikzadə məhz bu cür alicənab qələm sahibidir.

Bəxtiyar Vahabzadə (xalq şairi)

İsi çox zərif yumor hissinə malik adam idi. Harada olmasından asılı olmayaraq, orada şənlik olardı. Molla Nəsrəddinsayağı bu yumor hissi onun yazılarında da duyulurdu.

Fikrət Qoca (xalq şairi)

Azərbaycan nəsr irsinin köhnə (və artıq köhnəlmiş) nümayəndələriylə bir sıra yeni (iddiası olsa da, içi boş) məhsullarını kənara qoyandan sonra ortada qalan yaxşı və yaşanacaq nəsr xəzinəmizdə İsi Məlikzadənin doğurduqları bu gün də, gələcəkdə də təqdir ediləcək, seviləcək, öyrəniləcək, örnək göstəriləcək.

Rəfail Hüseynov (professor)

İsi Məlikzadə Azərbaycan üçün Əbdürrəhim bəy Haqverdiyev səviyyəsində parlaq ədəbi sima idi.

Əkrəm Əylisli (xalq yazıçısı)

– Ədəbiyyata yeni ab-hava gətirən, fədakar, kamil sənətkarlardan biri də İsi Məlikzadə oldu. Bu gözəl yazıçı zəngin bir ədəbi-bədii irs qoyub getdi. Əlli hekayəsi, saysız povesti, romanları ilə 60-90-cı illər nəsrində şərəfli bir yer tutdu. Geniş oxucu kütləsinin dərin hörmət və məhəbbətini qazandı.

Cəlal Abdullayev (professor)

İsi Məlikzadə yazıçı kimi dövrünü qabaqlamağa, lazımi fikri əvvəlcədən deməyə, cəmiyyətimizdəki narahatlığı öncədən duymağa qadir idi. Müşahidələri dərin və

köklüydü. Yəni, həyat axınının ardınca gəlib, onu kortəbii izləmirdi. Bütün hekayə və povestləri məhz belə fəhmlə yazmışdır.

Vidadi Babanlı (yazıçı)

İsinin məşhur "Qatarda" əsərinə ekranda hər dəfə baxanda içərisində yaşadığımız "cəmiyyət qatarımızı" güclü bir istedadın əks etdirdiyi aynada bütün çılpaqlığı ilə, bütün gülünclüyü və tragikliyi ilə görüb, gülüb düşünmürükmü?! İsinin gülüşləri həyatımızın acı həqiqətləri idi. İlan zəhərindən çəkilmiş dərman kimi...

Ayaz Vəfalı (şair-alim)

Moskvada qarlı bir qış axşamı idi. Dostlarla birlikdə keçirdiyimiz unudulmaz gecəni xatırlayıram. Səhərə qədər yatmadığımız həmən gecənin əsas qəhrəmanı İsi müəllim idi. Bəlkə də heç kəsin ağlına gəlməzdi ki, zahirən son dərəcə sakit, ağır və təmkinli görünən insanın içində belə yumor hissi, nadir istedada malik komiklik bacarığı var.

Vilayət Quliyev (professor)

İsi ilə biz uzun müddət dostluq etmişik. O, ən adi məişət hadisələrini, öz başına gələnləri, ya görüb eşitdiklərini elə ləzzətlə, elə yumorla danışardı ki, Molla Nəsrəddin lətifələri səviyyəsində bir şey alınardı.

Ramiz Rövşən (şair)

İsi haqqında qəmli, kədərli danışmaq olmur. Mən onu ancaq xoş və ılıq təbəssümlə xatırlayıram.

Musa Yaqub (şair)

İsi Məlikzadənin dostlarına qarşı comərdliyi, yumor dolu zarafatlarından doğan səmimiyyəti və humanistliyi onun son dərəcə alicənablığından xəbər verir.

Rəfiq Zəka Xəndan (şair)

– Yaş fərqimiz çox olmasına baxmayaraq, biz dost omuşuq. Bizi bir-birimizə yaradıcılıq telləri bağlayıb. İlk dəfə "Papaq" filminin yazılış vaxtı, sonralar isə məşhur "Qatarda" televiziya tamaşası üzərində işləyərkən bu dostluq daha da möhkəmləndi. Elə bir gün olmazdı ki, Həsənağa Turabovun otağında məşqdən sonra oturub söhbət eləməyək. İsi Məlikzadənin məşhur "Qatarda" əsəri 20 ilə yaxındır televiziyada nümayiş etdirilir, 14 ildir ki, Musiqili Komediya Teatrında tamaşaya qoyulur. Gözəl və ləyaqətli insan, vəfalı dost kimi İsi Məlikzadə həmişə qəlbimizdə yaşayacaq.

Yaşar Nuri (xalq artisti)

Böyük insan İsi Məlikzadənin yaradıcılığını oxuculara tanıtmaq və qələmini sevdirmək üçün kitabxanada keçiriləcək maraqlı tədbirlərdən biri də *"Mənalı yaşanan ömrün zirvəsi"* adlı **oxucularla söhbətdir**.

Kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Şagirdlərə ziyalı yazıçının bir çox kitabı təqdim edilir. Şagirdlər müxtəlif adda

kitabları oxuyurlar və iştirakçı qismində tədbirə hazırlaşırlar. Əvvəlcədən təyin olunmuş tədbirin vaxtı gəlib çatır. İştirakçılar və qonaqlar kitabxanın oxu zalına toplaşırlar. Kitabxanaçı hər kəsi salamladıqdan sonra yazıçı İsi Məlikzadə və sözü gedən kitablar, eləcə də onun sevilən əsərləri haqqında maraqlı söhbətə başlayır.
Kitabxanaçı: Elə yazıçılar var ki, onların yaradıcılıqları ilk baxışda ədəbi prosesdə mərkəzi, böyük planda nəzərə çarpır. Lakin, qəribəsi odur ki, eyni zamanda ədəbi prosesi, ədəbiyyatın ümumi inkişafını və ahəngini belə yazıçılarsız da qətiyyən təsəvvür etmək olmur, onların əsərlərini nəzərə almadan dövrün ədəbiyyatını tam əhatə etmək mümkün olmur. Çünki belə yazıçılar dövrlərinin ədəbi prosesi və ictimai-mənəvi həyatı ilə daxilən bağlı şəxsiyyətlərdir. Onlar ədəbiyyatda səssiz-küysüz çalışır, yazıb-yaradır, əsərləri ilə ədəbiyyatın yeni meyllərinn dərinləşməsinə bilavasitə təsir göstərirlər.
*Kitabxanaçının çıxışından sonra tədbirə dəvət olunmuş müxtəlif adda məktəblərin ədəbiyyat müəllimləri öz dəyərli çıxışlarına keçid alırlar.*
**I iştirakçı:** "İnsan dünyaya bir dəfə gəlir. Gərək elə yaşayaq ki, bizdən sonra gələnlər ruhumuza dualar oxusunlar". Bu fikirlər sevimli yazıçımız İsi Məlikzadəyə məxsusdur. Hər zaman kitablarını böyük həvəslə oxuyar, filmlərinə, tamaşalarına təkrar-təkrar baxmaqdan yorulmarıq. Bu baxımdan da onun unudulmaz portretini hər zaman gözümüz önündə canlandıra bilirik. İsi Məlikzadə yaradıcılığında sərt ironiya ilə incə yumor hissi qırılmaz tellərlə bağlı idi. "Qatarda" teletamaşanı xatırlayaq. Ən əvvəl tamaşanın quruluşçu rejissoru, əməkdar incəsənət xadimi Ramiz Həsənoğluna minnətdar olaq ki, bu sənət nümunəsinin seyrçilər tərəfindən alqışlanması üçün yüksək səviyyədə aktyor ansanblı yarada bilmişdir. İstər əsərdən, istərsə də rejissor mizanından irəli gələn, üzə çıxan elə detallar var ki, tamaşaçılar bu qarşılıqlı yaradıcılıq əlaqəsindən yaranan ekran əsərindən aldığı xoş təsuratı uzun müddət unutmurlar...
Ədəbiyyatımıza yeni qəhrəman tipi gətirmiş "60-cılar" ədəbi nəslinin nümayəndəsi olan İsi Məlikzadə müasir Azərbaycan povestinin yaradıcılarından biri, gözəl hekayələr müəllifi kimi tanınır. Onun əsərlərindəki özünəməxsus bədii dünya gerçəkləri XX əsr Azərbaycan insanını, onun mənəvi aləmini, əxlaqını və yaşayış tərzini aydın və düzgün əks etdirir. Yazıçı həm mövzu, həm mövzunun açılışı, həm də dil vasitələrinin bu mövzu və açılışa qovuşuq şəkildə işlədilməsi baxımından məxsusi keyfiyyətləri ilə seçilir. Bu kitabda ustad nasirin, doğruları sənət diliylə ifadə edən seçmə povest və hekayələri toplanmışdır.

**II iştirakçı:** İsi Məlikzadə... Azərbaycan bədii nəsrinin XX əsrdə yetirdiyi görkəmli söz ustalarından biri... Ədəbiyyatda heç kimə bənzəməyən, özünəməxsus fərdi deyim tərzi, yolu və üslubu olan bir sənətkar... Gözəl hekayələr müəllifi...müasir Azərbaycan povestinin yaradıcılarından biri... Bədii nəsrində ən doğru həqiqətləri sənət dililə ifadə edən, XX əsr Azərbaycan ziyalısının, kəndlisinin obrazlarını yaradan ustad nasir... Neçə bədii filmin ssenari müəllifi... Və nəhayət, heç vaxt xatirələrdən silinməyən, yaddaşlarda yaşayan əziz dost, gözəl insan. 35 illik bir yaradıcılıq yolu keçdi İsi Məlikzadə. Onu şəxsən tanımayanlar, maddi və mənəvi qayğılarından xəbərsiz olanlar üçün xoşbəxt sənətkar idi. Bu təsəvvürü İsi

Məlikzadə öz zəngin yaradıcılığı, sözünün qədr - qiymətiylə qazanmışdı. Ancaq bu xoşbəxt sənətkar İsi Məlikzadə 35 ildə heç də rahat və firəvan, mənəvi itkilərsiz yaşamayıb. Əslində, həyatın, yaşayışın mənası, yazıçı ömrünün mahiyyəti kimsədən pay ummamaq, zəmanə adlanan qara divlə üz - üzə gəlmək, bu amansız mübarizədə "mən bir həqiqətəm, heç deyiləm" məramını təsdiq etmək deyilmi? İsi Məlikzadə bu mübarizədən qalib çıxdı...

İsi Məlikzadə ilə onun təsvir etdiyi qəhrəmanlar arasında necə də bir doğmalıq var. Sanki o, öz ömrünün ayrı - ayrı aylarını, illərini obrazlarına paylayıb. İsi bütün əsərlərində özünü yaradıb. Ancaq eyni zamanda, o qəhrəmanların hər biri də öz ömrünü yaşayıb. "İki günün qonağı"ndakı mühəndis İslam sanki İsinin özüdür, "Quyu"da, "Yaşıl gecə"də, "Günəşli payız"da, "Dədə palıd"da, "Gümüşgöl əfsanəsi"ndə də təsvir olunan qəhrəmanlar İsinin mənəvi dünyasından güc almışlar.
**III iştirakçı:** Əgər biz keçən əsrin 50-90-cı illər Azərbaycan mənəvi mühitini, Azərbaycan ziyalısının və kəndlisinin həyat və məişətini, duyğular aləmini daha yaxından izləmək istəsək, heç şübhəsiz, İsi Məlikzadənin bədii nəsri və bu nəsrin qəhrəmanları əlimizdən tutacaq, ən yaxın bələdçimiz olacaq. İsi Məlikzadə özü bir insan kimi hər hansı bir əsərin baş qəhrəmanı ola bilər. Bu *baş qəhrəman* Ağcabədidə dünyaya göz açmışdı. Yazıçının lətifə damarı, baməzəlik, adamı qəşş edincəyə qədər güldürmək məharəti ona qandan keçmişdi. O, ixtisasına görə neft - qaz mühəndisi idi, mədəndə operator, yerüstü avadanlıq ustası, mühəndis işləmişdi. Ancaq özü də hiss eləmişdi ki, onu başqa bir aləm cəlb edir və 1966 - cı ildən taleyini ədəbiyyata bağlamışdı. Heç bir filoloji təhsili olmayan İsi Məlikzadə ilk hekayəsi çap olunanda (1960) 26 yaşı vardı. Ədəbiyyat aləmində kimsə onu tanımırdı. "Baxmadı getdi" adlı ilk hekayəsində o, bir oğlanla bir qızın görüşünü təsvir etmişdi. Elə hekayənin adından onun süjeti də məlum olur.

Ədəbi mühitdə onun ilk tanıdığı şəxslər Fərman Kərimzadə, Əlibala Hacızadə və Vasif Nəsiboğlu olub. O zaman redaksiyalara getməyə utanırdı, fikirləşirdi ki, adlarını eşitdiyi və pərəstiş etdiyi Mehdi Hüseyni, Mirzə İbrahimovu, Əbulhəsəni, İlyas Əfəndiyevi görsə, harada qaçıb gizlənəcək. O illərdə ədəbi mühitdə "qocalarla" "cavanlar" arasında əsl hədd - hüdud var idi, ağsaqqalın qədr - qiyməti uca tutulurdu. İsi Məlikzadənin ilk yazılarının çapında Sabir Əhmədlinin, Salam Qədirzadənin, Əliağa Kürçaylının böyük köməyi olmuşdu. Yazıçının mənsub olduğu ədəbi nəsil o dövrün (60-cı illərin) gənc yazarları hesab edilirdi. Yazmaq, çap olunmaq heç də asan, maneəsiz deyildi. Axı canlı klassiklər yaşayırdı - Azərbaycan sovet nəsrinin təməlini yaradan Mirzə İbrahimov, Mehdi Hüseyn, Süleyman Rəhimov, Əli Vəliyev, Əbülhəsən, İlyas Əfəndiyev, Ənvər Məmmədxanlı. Digər tərəfdən, artıq yaradıcılığının bəhrəli çağlarını yaşayan İsmayıl Şıxlı, İsa Hüseynov, Sabir Əhmədli, Bayram Bayramov kimi tanınmış yazıçılar vardı.

Kitabxanada İsi Məlikzadənin anadan olmasının 90 illiyi ilə əlaqədar virtual kitab sərgisinin hazırlanması məqsədəuyğundur.







Kitabxanada keçiriləcək tədbirlərdən biri də **kitab müzakirəsidir**. İsa Məlikzadənin xatirəsinə həsr olunmuş "Ədəbiyyatda heç kimə bənzəməyən, özünəməxsus fərdi deyim tərzi, yolu və üslubu olan bir sənətkar" adlı tədbirə Azərbaycanın gorkəmli ədiblərini, sənət-söz adamlarını, ali məktəb tələbələrini və yuxarı sinif şagirdlərini dəvət etmək olar. Yazıçını "Seçilmiş əsərləri" nin təhlili aparılan kitab müzakirəsində tədbir iştirakçıları ilk olaraq kitab sərgisi ilə tanış olub zalda əyləşirlər. Ədib haqqında slayd göstərildikdən sonra və tədbiri açıq elan etmək üçün kitabxanaçı səhnəyə daxil olur.

***Kitabxanaçı***: Ədəbiyyatımıza yeni qəhrəman tipi gətirmiş "60-cılar" ədəbi nəslinin nümayəndəsi olan İsi Məlikzadə müasir Azərbaycan povestinin yaradıcılarından biri, gözəl hekayələr müəllifi kimi tanınır. Onun əsərlərindəki özünəməxsus bədii dünya gerçəkləri XX əsr Azərbaycan insanını, onun mənəvi aləmini, əxlaqını və yaşayış tərzini aydın və düzgün əks etdirir. Yazıçı həm mövzu, həm mövzunun açılışı, həm də dil vasitələrinin bu mövzu və açılışa qovuşuq şəkildə işlədilməsi baxımından məxsusi keyfiyyətləri ilə seçilir. Bu kitabda ustad nasirin, doğruları sənət diliylə ifadə edən seçmə povest və hekayələri toplanmışdır.

İsi Məlikzadə 60-cı illər nəsli modern Azərbaycan Ədəbiyyatının banilərindəndir. Əsərləri ideallaşdırılmış qəhrəmanlardan daha çox reallığa dayanır və 60-90-cı illər Azərbaycan kəndlisinin həyatının mənəvi-əxlaqi predmetləri üzərinə qurulub. Əsasında da əsərlərinin sonluğu – bitiriş, son nöqtəni qoyma üslubu. Özünün də yazdığı kimi: "Xoşbəxtliyə aparan yolda neçə uçurum var..." Uçurumlara gəlmədən kitabın içindəkiləri əvvəlcə belə qeyd edim:
*Povestlər:* Evin Kişisi; Küçələrə Su Səpmişəm; Quyu*;* Dədə Palıd*;* Gümüşgöl Əfsanəsi




Hekayələr: Oğul; Duz*;* ;Talisman*;* Qatarda*;* Şehli Çəmənlərin İşığı*;* Gümüşgöl Əfsanəsi povesti "Bəbək", "Qatarda" "Nizami" və s.
İndi uçurumlara gəlsək uzun uzadıya hər bir hekəyəsini, povestini, obrazlarını müzakirə etmək olar. "Park", "Ölsəm Bağışla", "Güllələnmə Təxirə Salınır". Bu filmlər Azərbaycan filmləri içində necə böyük dəyərlərə sahibdir. Bu kitabda onlardan biri və bu dəfə o dövrlər ağ-qara lentlərdə yox, rəngli film lentləri kimi xışıldayıb, axıb gedir.

Baxmayaraq ki, 60-90 illər Azərbaycan kəndlisinin həyatını ələ alınır, amma deyə bilərəm ki, uşaqlıqdan şahid olduğum şeyləri bir də kitabdan oxuduğum üçün üzərimdə çox də böyük təsir buraxmadı. Lakin, demək olar ki, bütün bu əsərlərində ya özümü ya da kəndimizdən birilərini oxuyurdum. Ən çox bəyəndiklərim isə "Quyu", "Dədə Palıd" povestləri və "Qatarda" hekayəsi oldu. "Qatarda" hekayəsindəki Dadaşov isə həsəd apardığım insan obrazı idi.
"Dədə Palıd" povesti s.159: "Nə qədər ki, Dədə Palıd burdadı, Bağır dünyanın qədimliyinə də, əbədiliyinə də inanır."
Dədə Palıd. Hamımızın həyatında bir "Dədə Palıd" var. Bax həmin "Dədə Palıd"ın hər yaz yarpaqları yaşıllaşdıqca, qışın qarına, boranına, sərt küləyinə baxmayaraq dik durduğu müddətcə əbədiliyinə inanırıq, əbədi sanırıq. Dədə Palıdın vaxtı gəlib, öldüyü zaman isə həyatımızın dönüm nöqtəsi başlayır.

Ədəbiyyatda, xüsusilə bədii nəsrdə yeni meyllər və tendensiyalar diqqəti cəlb edirdi. Bütünlükdə ədəbiyyatın özü yeniləşməyə başlayırdı və bu mərhələni bütün ədəbi nəsillər yaradırdı. Diqqət yetirsək, görəcəyik ki, Mirzə İbrahimov, Mehdi Hüseyn, İlyas Əfəndiyev kimi yazıçıların yaradıcılığı da əvvəlki yazdıqlarından fərqlənirdi, ilk povestləri 50-ci illərdə çap edilən və ədəbi aləmdə elə bir reaksiya doğurmayan İsa Hüseynov tamam başqa bir yazıçı olmuşdu, İsmayıl Şıxlı, Sabir Əhmədli yeniliyi vaxtında duymuşdurlar. Anar, Elçin, M. İbrahimbəyov,

İ.Məlikzadə, S.Süleymanov, F. Kərimzadə, S.Azəri kimi gənc nasirlər isə birbaşa fərqli, özünəməxsus ədəbi düşüncə nümayiş etdirirdilər.

Bədii nəsrdə əvvəlki illərdən fərqli olaraq insanın mənəvi - əxlaqi dünyasının təsvirinə meyl və maraq artmışdı, şəxsiyyət başlanğıcı, ədəbi qəhrəmanın hərtərəfli (həm müsbət, həm də mənfi) təsvirinə meyl, onu bütün mürəkkəbliyi ilə canlandırmaq səyi getdikcə aparıcı xəttə çevrilirdi. Bir janr kimi roman - vüsətli, epik roman xətti tədricən öz yerini yığcam povest janrına təhvil verirdi. 60-70-ci illər Azərbaycan nəsri üçün bu mənada povestin çiçəklənməsi mərhələsi oldu. Lakin ən başlıcası bu idi ki, ədəbiyyatda reallıq, həyat həqiqətinin təsviri üstünlük təşkil edirdi. İ.Bexer məqalələrinin birində yazırdı: "Yeni incəsənət heç vaxt yeni formalardan başlamır, həmişə yeni insanla doğulur". İsi Məlikzadə və onun mənsub olduğu "altmışıncılar" ədəbi nəsli ədəbiyyata məhz yeni qəhrəman tipini gətirdilər.

"Evin kişisi" povestində İsi Məlikzadə adi bir insanı - sıravi milis işçisi Qaçayın həyatını təsvir edir. Qaçay öz hərəkətləri və davranışı ilə sovet ədəbiyyatının "müsbət qəhrəmanı" tipi ilə heç cür uyuşa bilməz. Çünki o, mənfiliklərə qarşı mübarizə apara biləcək qəhrəman səviyyəsində deyil. Hətta Qaçay "müsbət qəhrəman"a xas olmayan avam və sadəlövh düşüncə tərzilə gülüş də doğurur. Rəisi Qaçayı ironiya ilə "Koroğlu" adlandırır, lakin Qaçay nəinki Koroğlu, heç onun dəlilərindən də deyil. Amma Qaçay daxilən saf və təmiz insandır. O, kiminsə qarşısında əyilir, sınır, amma bu təmizlik onu tərk etmir. Məsələ burasındadır ki, Qaçay tipli insanlar ədəbiyyatın qəhrəmanı olmamışdılar. Onlar adi həyat tərzi, gün - güzəran ağırlığı, maddi və mənəvi qayğıları ədəbiyyatın predmetinə çevrilməmişdi. Təsadüfi deyil ki, "Evin kişisi" çap olunandan sonra bəzi tənqidçilər "bu necə qəhrəmandır? bu qəhrəman niyə passivdir?" deyə haray qopardılar. Lakin unudulurdu ki, ədəbi qəhrəmanın tipləri müxtəlif ola bilər və Qaçay kimi insanlar isə həyatda, reallıqda mövcuddurlar. İsi Məlikzadə isə süni şəkildə Qaçaya "müsbət qəhrəman" pasportu, "mübarizlik" vəsiqəsi bəxş etməmişdir.

Lakin əlbəttə, İsi Məlikzadənin yaratdığı ədəbi qəhrəmanların heç də hamısı Qaçaya oxşamır. Qaçay sadəcə olaraq sadə, təmiz və mənəviyyatlı insanların bir nümunəsidir. Bu qəhrəmanların hamısının qarşısında istisnasız və tərəddüd eləmədən "işıqlı" sözünü bədii təyin kimi işlətmək mümkündür. Lakin İsi Məlikzadənin təsvir etdiyi bu işıqlı insanların hər birinin öz fərdi dünyası, mənəvi aləmi var. Və İsi Məlikzadə hər bir qəhrəmanı təsvir edəndə özünəməxsus bədii boyalar, təravətli ifadə vasitələri tapa bilmişdir.

İsi Məlikzadənin təsvir etdiyi KƏND keçən əsrin 60-90-cı illərindəki Azərbaycan kəndidir.Yazıçı bu kəndi yaxşı tanıyırdı və yaxşı tanıdığı üçün də özündən heç nə uydurmurdu. O, kəndi ideallaşdırmırdı, özündən əvvəlki yazıçılardan fərqli olaraq bu kəndin ordenli - medallı, şöhrətli qəhrəmanlarından söz açmırdı (onsuz da bu mövzuda onlarla əsərlər yazılmışdı). İsi Məlikzadə bu kəndin ağrı-acılarından, mənəvi baxımdan ekoloji tənəzzülündən, kənddə yaşayan insanların müxtəlif qayğılarından danışırdı. Bu baxımdan onun üç povestini xatırlatmaq kifayətdir:

"Quyu", "Yaşıl gecə" və "Dədə palıd".Elçin Əfəndiyev "Quyu" müəllifinə məktub göndərmişdi və həmin məktubda yazırdı ki: "Bu məktubun əsas səbəbi Sizin "qazdığınız" "Quyu"dur və lap əvvəldən deyim ki, yaxşı "quyu" qazmısınız, suyunun "mət kimi şipşirin, göz yaşı kimi dumduru" olması barədə bir söz deyə bilmərəm, amma bu quyu bədii psixoloji mənada gələcəyin daha dərin "Quyu"larından xəbər verir, sizin yaradıcılığınızdakı inkişafı, bədii - estetik kamilliyə doğru keyfiyyət dəyişikliyini əyani şəkildə göstərir". Elçin Əfəndiyev həmin məqaləsində İ.Məlikzadənin "bədii cəhətdən dürüst və aktual" yaratdığı ayrı-ayrı obrazlardan söz açır və bu povesti İsi Məlikzadə yaradıcılığında irəliyə doğru böyük addım hesab edirdi.

"Quyu"da İ.Məlikzadə yetmişinci illər Azərbaycan kəndinin mənəvi - əxlaqi mənzərəsini əks etdirirdi. Əlbəttə, demək olmaz ki, bu mənzərə tam və bütöv idi, amma tam və bütöv olmasa da, real idi, inandırıcı idi, yalan deyildi. Yazıçının təsvir etdiyi insanlar - Umud, Məcid kişi, kolxoz sədri Xalıq, onun arvadı Əsli, qızı Solmaz, qoca anası və bu ailəyə məhrəm olan Piri bir obraz kimi son dərəcə təbii idilər - bütün müsbət insani keyfiyyətləri və qüsurları ilə birgə. Quyu sözünün özü də simvolik, rəmzi bir məna daşıyırdı və oxucu əsil quyu qazanlarla quyu qazanları seçib fərqləndirə bilirdi..

İ.Məlikzadənin "Yaşıl gecə" povestindəki Qərib də eyni yolu seçir. Fərq burasındadır ki, Umud üçün yol açıqdır - o, artıq özünü dərk edib, bundan sonra həyatda özünü bir şəxsiyyət kimi təsdiq etməyə çalışacaq. Qərib isə o dünyalıqdır, mənən saf və təmiz olan bu insanın fiziki qüvvəsi tükəndi. "Dədə palıd"dakı Nurcabbar isə təbiət aşiqidir. Lakin təbiətə bu vurğunluğu təkcə heyranlıqla bağlamaq doğru olmazdı, burada həm də rəmzi - simvolik bir çalar var. Nurcabbar təbiətlə insan harmoniyasının pozulduğunu, insanın təbiətə qəsd etdiyini böyük ürək ağrısı ilə dastana, nağıla çevirir: "Quruyacaq Dədə palıd, ayaq üstə can verəcək..." İsi Məlikzadənin bu povestində bir haray var - təsadüfi deyil ki, Dədə palıd mişarlananda Nurcabbar da meşəni, təbiəti tərk edir.

Doxsanıncı illərdə İsi Məlikzadə "Qırmızı şeytan" povestini yazdı. Bu povestdə İsi Məlikzadə illərdən bəri içində püskürən qəzəb və etirazını, yaşadığı cəmiyyətdən narazılığını bədii sözlə ifadə etdi. Onun qəhrəmanı Səməndər 20 Yanvar gecəsi şəhid olur. Və 90-cı illərdə İsi Məlikzadə müstəqilliyin bəhrəsini gördü. Amma... öz yazıçı təbiətinə sadiq qaldı - kapitalizmin özü ilə gətirdiyi mənəvi, ictimai, iqtisadi qüsurlara da kəskin etirazını bildirdi. O illərdə İsi Məlikzadə deyirdi: "Mənim fikrimcə, nə olur-olsun, hansı partiya, hansı siyasi xadim hakimiyyətə gəlirsə-gəlsin, mədəniyyət, sənət biganəliklə üzləşməməlidir. Ədəbiyyat hər bir dövrdə insan üçün təkcə estetik zövq, mənəvi qida mənbəyi olmayıb, həm də xalqın sözlə yaradılan tarixidir. Lakin doxsanıncı illərdə mənzərə dəyişmişdi: sənət, bədii söz arxa plana keçib, mənəviyyatda dərin bir çat əmələ gəlmişdi. Müharibənin doğurduğu əhval-ruhiyyə, gün-güzəranın pisləşməsi, əhalinin təbəqələşməsi,

Azərbaycanın qaçqın-köçkün ölkəsinə çevrilməsi, soyumaq bilməyən hakimiyyət ehtirasları... bütün bunlar dəhşətli bir xaos yaratmışdı..
...İsi Məlikzadə - görkəmli Azərbaycan yazıçısı, gözəl povestlər müəllifi bu ümid və inamla da dünyadan köçdü. Ancaq dünyadan köçən onun cismi oldu, İsi Məlikzadənin yaratdığı söz dünyası yaşayır. İsi Məlikzadənin əsl ömrü o sözün ömrü qədərdi.
İsi Məlikzadənin yaradıcılığını oxuculara tanıtmaq məqsədilə kitabxanada bir çox tədbirlər, eləcə də "Ucadan oxu" adlı tədbir keçirmək olar. Məsələn, bu məqsədlə kitabxanaçı bir neçə məktəblə sıx əməkdaşlıq edir. O şagirdləri, xüsusən də, yuxarı sinif şagirdlərini kitabxanaya cəlb etməklə ədibin əsərləri ilə tanış edir. Kitabxanaya abunə olan şagirdlər İsi Məlikzadənin əsərlərini oxuyur, onun yaradıcılığı ilə yaxından tanış olurlar. Bu vaxt ərzində kitabxanaçı yuxarı sinif şagirdlərinə yazıçının bir sıra hekayələrini təqdim edir. *Məsələn: Ədibin sevilən əsərlərindən biri olan "Gümüşgöl əfsanəsi" hekayəsi iştirakçı tərəfindən qiraətli şəkildə səsləndirilir:*

***İştirakçı:*** Şən avtomobil gəzintilərindən birində gənc sənətşünas Fərid və dostları yoldan keçən piyadaya sataşmaq məqsədilə maşının işığını onun üstünə buraxırlar. Piyada maşına dəyib yıxılır və hərəkətsiz qalır. Məsuliyyətdən yaxa qurtarmaq üçün hamı şəhərdən çıxmağa çalışır. Fərid də uzaq dağ kəndinə, məşhur xalçatoxuyan Səidənin yanına gedir. Burada o, Səidənin qızı Leyli ilə tanış olur. Sadəlövh qız ona Gümüşgölün əfsanəsini danışır: Hər kəs bu göldə özünü yoxlaya bilər. Əgər insan namusludursa o, gölün üstü ilə asanlıqla yeriyə bilər.
Fərid şəhərə qayıdandan sonra özünə yer tapa bilmir. Həyat ona cansıxıcı görsənir. Leyli və Gümüşgölün hərəkətsiz suları onun gözünün qarşısından çəkilmir. Fərid yenidən dağ kəndinə gedir…
Bu əsər vaxtında ayaq saxlayıb ətrafa diqqət yetirməyin, həyat haqqında dərindən düşünməyin vacibliyi barədədir.
*Tədbirin sonunda iştirakçılar ədibin digər əsərlərini səhnələşdirir.Öncə səhnədə əsərlərə uyğun olaraq, dekorasiya hazırlanır. İştirakçılar canlandırdıqları obrazlara uyğun paltarlar geyinirlər. Beləliklə, kiçik hekayələrinin əsasında hazırlanmış səhnəcik iştirakçılara təqdim olunur.*
Kitabxanada keçiriləcək tədbirlərdən biri də konfransdır. İsi Məlikzadənin xatirəsinə həsr olunmuş *"Həsrətin sonu"* adlı **konfransa** Azərbaycanın gorkəmli ədiblərini, sənət-söz adamlarını, tənqidçi və ədəbiyyatşünaslarını dəvət etmək olar.
***Kitabxanaçı:*** Qatardayıq. Hamımız ömür qatarının sərnişinləriyik... Bu qatar dolub boşala-boşala, boşalıb dola-dola lap əbədiyyətin özündən də keçib gedir. Fəqət biz sərnişinlərin tək-tük sərnişinlərin ömür yolu nəinki əbədidir, hətta əfsuslar ki, lap bəzən qaşla göz arasındadır. Bəzən də ara-sıra bir əsrə bərabərdir. Xülasə hər bir sərnişinin sonuncu, axırıncı dayanacağı taleyin, qismətin hökmüylə, iziylə onun alnına yazılıb. Ömür qatarındakı sərnişinlərin heç biri yüksüz, bağlamasız deyildir. Bu yük kimin xalqa nə cür xidmət etməyindən, bu xidmətin nəticəsindən, bəhrə və

barından ibarətdir. Bu xidmətin vasitələri çoxdur. Çoban tütəyi, müğənni zəngulәsi, müəllim təbaşiri, bənna malakeşi, rəssam fırçası, kimyagər fəhmi, dirijor çubuğu, yazıçı qələmi, alim zəkası, bir də əzablı yazıçı zəhməti...Ömür qatarının sərnişinlərindən biri də yazıçı İsi Məlikzadədir. İsi Məlikzadə oxucu və tamaşaçıların yaddaşında hər zaman istedadlı bir dramaturq olaraq yaşayır.

***I İştirakçu:*** Bu günlərdə "Qanun" nəşriyyatında Azərbaycan Yazıçılar Birliyinin (AYB) təşəbbüsü ilə görkəmli Azərbaycan yazıçısı İsi Məlikzadənin "Qatarda" hekayələr kitabı çap olunub. Yazıçının ilk qələm təcrübələrindən həyatının son dönəminə qədər yazdığı, demək olar ki, bütün hekayələrinini toplanıdığı kitaba AYB-nin katibi Rəşad Məcid "İndi hanı o bağlar..." sərlövhəli Ön söz yazıb.

***(Sərlövhədən hissə)***

Çağdaş nəsrin ustalarından sayılan unudulmaz yazıçımız İsi Məlikzadənin yaradıcılığına daha çox diqqət yetirilməsinin, onun əsərlərinin geniş çapının vacibliyi barədə son zamanlar xeyli danışılıb. Əsərləri müstəqillik illərində az çap edilən görkəmli nasirin yaradıcılığının layiqincə nəşri yönündə bir sıra cəhdlər də olub. Bu il İsi Məlikzadənin anadan olmasının 90 illik yubileyidir.

***II İştirakçı:*** Tale belə gətirdi ki, İsi müəllim bu dünyadan erkən, həm də qarışıq bir dövrdə köçdü, layiq olduğu təltifləri, fəxri adları almağa ömrü vəfa etmədi. Amma bir müddət də yaşasaydı, yəqin ki, özünün zəngin və qiymətli yaradıcılığına görə dövlətimiz tərəfindən yüksək təltiflərə layiq görüləcək, çox güman, Azərbaycanın Xalq Yazıçısı adını da alacaqdı. O halda, heç şübhəsiz, xatirəsinin əbədiləşdirilməsi, eləcə də ev muzeyinin yaradılması ilə əlaqədar məsələlər çox asanlıqla öz həllini tapacaqdı. İsi Məlikzadənin nəsri, onun hekayələri təkcə oxuculara maraqlı olmaqla məhdudlaşmır, həm də yeni nəsil yazarların öyrənməsi üçün həmişəyaşar mənbə məziyyəti daşıyır.İsi Məlikzadə Azərbaycan nəsrində öz fərqli dəsti-xətti, orijinal və maraqlı təhkiyəsi, müəllifinin imzasını daima parlaq saxlayacaq hekayə və povestləri ilə xüsusi yer tutan yazıçıdır. Eyni zamanda, dostlarının xatirələrində nəcibliyi, dadlı-duzlu yumoru, hazırcavablığı, şirin söhbətlərilə yaşayan, yaddaşlardan silinməyən təkrarsız şəxsiyyətdir.

***III İştirakçı:*** Tənqidçi Vaqif Yusifli İsi Məlikzadənin kitabına yazdığı "Sözün ömrü qədər" adlı ön sözündə onun qəhrəmanlarını belə təqdim edir: "Yalnız hekayə və povestlərindən tanıdığım və sevdiyim İsi Məlikzadə ilə ünsiyyətim məndə belə bir fikir yaratdı ki, İsi Məlikzadə ilə onun təsvir etdiyi qəhrəmanlar arasında güclü doğmalıq var. Sanki o, öz ömrünün ayrı-ayrı aylarını, illərini obrazlarına paylayıb. İsi müəllim bütün əsərlərində özünü yaradıb. Ancaq eyni zamanda, o qəhrəmanların hər biri də öz ömrünü yaşayıb. "İki günün qonağı"ndakı mühəndis İslam sanki İsinin özüdür, "Quyu"da, "Yaşıl gecə"də, "Günəşli payız"da, "Dədə Palıd"da, "Gümüşgöl əfsanəsi"ndə də təsvir olunan qəhrəmanlar İsinin mənəvi dünyasından güc almışlar". Sonralar İsi Məlikzadə ilə bir neçə dəfə görüşdüm. Bu görüşlər onun haqqında düşüncələrimi, təsəvvürlərimi, təbii ki, müsbət mənada doğrultmaqla yanaşı, daha da dolğunlaşdırdı.

Qarabağ itkisi, yeni müstəqillik qazanmış ölkədəki təlatümlər İsi müəllimə çox dərin sarsıntılar gətirib. O, bir qarabağlı, azərbaycanlı kimi ölkənin, xalqın üzləşdiyi çətinlikləri, dərdləri dərindən hiss edir və bölüşürdü. Hətta son povesti olan "Qırmızı şeytan"ı da bu mövzuya həsr etmişdi. Qızı Xatirə xanım həmin povesti atasının yaradıcılığında ən sevdiyi əsər adlandırır: "Çox sevdiyim "Qırmızı şeytan" adlı gözəl bir əsəri var. Sonuncu əsəridir. 20 Yanvar hadisələrindən bəhs edir. Həm də 1918-ci ildə rus ordusunun Qarabağa gəlməsindən söz açılır, dövrlər müqayisə olunur". Vaqif Yusifli isə həmin povest barədə yazır: "Bu povestdə o, illərdən bəri içində püskürən qəzəb və etirazını, yaşadığı cəmiyyətdən narazılığını bədii sözlə ifadə etdi".

İsi Məlikzadə erkən deyə biləcəyimiz məqamda, yaradıcılığının müdrikliyə qədəm qoyduğu vaxtda - 61 yaşında dünyamızı tərk etdi. XX əsr Azərbaycan nəsrinin səhifələrindən İsi Məlikzadə imzası heç vaxt silinməyəcək: "Onun duzlu, düşündürən hekayələrini, povest və romanlarını xalqımız uzun illər sevə-sevə oxuyacaq. Yəqin ki, çox-çox illər sonra da İsi müəllimin əsərləri əsasında filmlər çəkiləcək, tamaşalar səhnəyə qoyulacaq. Bu gün ədəbiyyat maraqlısı olan hər bir kəsin evi İsi müəllimin əsərlərindən xali deyil. Azərbaycan xalqı illər ötdükcə yenə də onun kitablarına üz tutacaq, yenə də "Qatarda" tamaşasına baxacaq və onun əsərləri həmişə insanların ən qəmli vaxtında belə köməyə çatacaq, bir ümid çırağına dönəcək".

***V İştirakçı:*** Düşünürəm ki, İsi Məlikzadənin bu kitabda yer alan hekayələri barədə fikirləri, təzələnən təəssüratları da bölüşmək heç də yersiz alınmaz. Məsələn, "Qarlı bir gün" hekayəsindəki sürücü Qəzənfər, "Oğul"dakı Tahir kimi personajlar, onillərdir ki, mənim hafizəmdə öz yerini qoruyur. Saf təbiətli, dürüst bir insan kimi təqdim olunan sürücü Qəzənfər ilk iş günündə müdirinin kobudluğunu görüb ona qarşı çıxır, xarakterini nümayiş etdirərək etirazını bildirir, oradan uzaqlaşır. Və ya "Oğul" hekayəsində oğlunun evə gec gəlməyindən narahat olan xəstə ata səbrini basa bilmir, əsəbləşir, həyat yoldaşına gileylənir, oğlu evə gələndə isə acığından ona sillə vurur. Sonra məlum olur ki, oğlu məhz atasının xəstəliyinə görə, universitetdə oxuya-oxuya həm də işləyirmiş... Belə obrazlar və hadisələr sonralar inkişaf edərək İsi müəllimin povestlərində daha gözəl və bütöv şəkildə üzə çıxdı, bir qədər də canlanıb püxtələşdi.

İsi Məlikzadənin incə yumoru hələ keçən əsrin altmışıncı illərində yazdığı "Yuxu dərmanı" hekayəsində də aşkar hiss olunur. O yumor tədricən güclənərək, yeni çalarlar alaraq ədibin məşhur hekayələrində təkmil halına çatıb.

1979-cu ildə "Azərbaycan" jurnalında İsi müəllimin "Dədə palıd" povesti çap olunmuşdu. Povest axıcı, lirik təhkiyəsiylə bir nəğmə kimi qalıb yadımda. Oxuduqca yazıçının yaratdığı pak, sadəlövh obrazlar - Nurcabbar, Bağır yenidən gözümdə canlanır. Bir də "pul qazanmaqdan savayı dərdi olmayan, puldan ötrü anasının əmcəyini kəsən" Piti Namaz var, təbii ki. Oradakı ən yaddaqalan, təsirli

məqamlardan biri də cəmiyyətdə özünə yer tapa bilməyib mehrini təbiətə salan Nurcabbarın Kür çayıyla dərdləşməsidir:
" Mən gedəriyəm, sən əbədi. Mən acizəm, sən güclü. Qoru bu dünyanı acgözlərdən. Onların gətirdikləri bəladan, yamanlıqdan hifz elə bizi. Qorxuram acgözlərdən, Kürüm, qorxuram". 40 il əvvəl yazıçının inanılmaz intuisiyayla hiss etdiyi dərdlər sonralar qabardı, şişdi. Acgözlük dalğasında Nurcabbarlar məhv oldu, Bağırlar ev-eşiksiz qaldı, Piti Namazlar hörmətə minib iş adamına çevrildi...
Qeyd etdiyim kimi, İsi Məlikzadənin povestlərinə lirik təhkiyə, rəvan ahəng xasdır. Onun əsərlərini təkrar mütaliə etdikcə, bəzi məqamlarda Xalq yazıçısı Anarın hələ 1984-cü ildə yazdığı "Nəsrin fəzası" məqaləsində İ.Məlikzadə haqqında qələmə aldığı fikirlərini xatırlayıram: "İ.Məlikzadə üçün təbiətin mühafizəsi problemi - yüzillik palıdın qorunması ("Dədə palıd"), nadir fauna qoruğunda qayda-qanuna ciddi riayət olunmaları ilə sıx surətdə bağlıdır.
***VI İştirakçı:*** İ.Məlikzadənin əsərlərində bu problemlər alleqoriya və metaforasız, sırf realist aspektdə qoyulur. Alleqoriya və simvollar varsa da, yalnız başlıqlardadır. "Yaşıl gecə", "Dədə palıd", "Quyu" - əlbəttə, rəmzlərdir, metaforadır.
... İ.Məlikzadənin əsərlərinin məkanı həmişə ciddi fabula çərçivələri arasındadır. O, povestdən povestə, demək olar ki, eyni mənəvi modellə, hətta müxtəlif materiallar əsasında eyni əxlaqi situasiyaya ayrı-ayrı nöqtələrdən baxa-baxa müraciət edir. Povestlərin süjet xətləri, onların fakturaları eyni olsa da, mənəvi konfliktin mahiyyəti eyni modelə gəlib çıxır - etik prinsiplərdən əl çəkərək, əvəzində böyük nemətlərə, güzəşt və imtiyazlara sahib olmaq, ya da bütün bunlardan imtina etməklə ləyaqəti, şəxsiyyəti qoruyub saxlamaq. Özü də yazıçı personajların yaşını, peşəsini və xarakterlərinin xüsusiyyətlərini dəyişərək, problemlə qarşılaşan qəhrəman modelinin ümumi cizgilərini saxlayır: cavan, hələ heç fiziki cəhətdən möhkəm olmayan qəhrəmanlar (Qaçay da, Umud da, Qərib də belədir) axırda özlərinin




mənəvi mətinliklərini nümayiş etdirirlər. Yaradıcılığına xas olan plastik görümlülük, dəqiq təsvir, canlı dialoqlar və duzlu yumorla yanaşı, "variasiyalı mövzu" adlandıra biləcəyimiz bu xüsusiyyət İsi Məlikzadə nəsrinin əsas keyfiyyətlərindən biridir".
İsi Məlikzadənin bir çox əsəri kimi, Qatarda" kitabı da sanki bir kino materialı idi. Təsadüfi deyil ki, hekayə çap olunandan az sonra rejissor Ramiz Həsənoğlu onun əsasında televiziya tamaşası hazırladı, Həsən Əbluc, Yaşar Nuri, Hamlet Xanızadə və başqa usta aktyorların ifasında uğurla təqdim olundu. Tamaşa böyük əks-səda yaratdı və indiyə qədər də Azərbaycan Televiziyasının klassik işləri sırasında müstəsna mövqeyini qorumaqdadır. Xalq şairi Qabil bu əsərlə bağlı vaxtilə çox dəqiq fikir bildirmişdi: "İsi Məlikzadə Azərbaycan nəsrinin Çexovu idi, Şukşini idi.

O, heç bir şey yazmasaydı da, əxlaq, sima, gözəllik, mütilik və kişilik poeması olan "**Qatarda**" onun bəsiydi".

İsi müəllimin bu kitabdakı digər hekayələri də orijinallığı, koloritli obrazları baxımından son dərəcə maraqlı və dəyərlidir. **"Cehiz güzgüsü"** hekayəsindəki yekəxana, özündənrazı, ancaq həm də saf təbiətli Nəsir obrazı "Qatarda"nın Dadaşovuna xeyli bənzəyir, bir mənada, onun "əcdadı" sayıla bilər. Amma Dadaşov bəlli anlamda Nəsirin daha təkmil variantıdır. Güman ki, İsi Məlikzadə həmin illərdə həqiqətən də məhz belə bir adamı müşahidə eləmişdi və onun xarakterik obrazını ustalıqla yaratmışdı.

Yaxud da ədibin **"Bu dağlar - qoşa dağlar"** hekayəsini oxuyanlar, sözsüz ki, "Kişi sözü" filmini, oradakı xoş ovqatı, duzlu-məzəli epizodları xatırlayacaqlar.

**"Talisman"** hekayəsində də süjet o qədər dinamik, təsvirlər elə canlıdır ki, İ.Məlikzadənin ssenarist kimi də necə mahir olduğu dərhal diqqət çəkir. Təsadüfi deyil ki, indi də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri kurs və ya diplom işlərində kiçik sujetli filmlər çəkərkən tez-tez onun hekayələrinə müraciət edirlər. Rejissorluq fakültəsinin tələbəsi, gənc istedadlarımızdan biri Vasif Rzalı özünün kurs işi üçün yazıçının "Duz" hekayəsini seçərək, onun əsasında qısa film çəkmiş, uğurlu ekran işinə imza atmışdı.

İsi Məlikzadənin 1984-cü ildə yazdığı **"Bir göyün altında"** hekayəsi elə bir dövrdə yazılmışdı ki, onda hələ Qarabağ hadisələri, Ermənistan-Azərbaycan münaqişəsinin başlanmasına illər vardı. Amma müxtəlif yerlərdə erməni təxribatları başlamışdı, qismən də olsa, bəd niyyətləri üzə çıxırdı. Şübhəsiz ki, yazıçı fərqli intuisiyası ilə bunları çox öncədən duyurdu. İsi Məlikzadə əslində, çox humanist, xoş niyyətlə yazılmış bu hekayədə eyni zamanda, erməni xislətini açıb göstərə bilmişdi.

**VII İştirakçı: "Şehli çəmənlərin işığı"**nda 60 yaşı tamam olan Mirzənin həyat yoldaşı Nina beş il əvvəl rəhmətə gedib, oğlu və qızının başları öz həyatlarına qarışıb, atalarının ad gününü elə-belə, dilucu təbrik ediblər. Və birdən Mirzə yeddinci sinifdə oxuyarkən öz sinif yoldaşı Həsənə vurduğu silləni xatırlayır, 46 ildən sonra Həsən gəlib Mirzənin yadına düşür. O vaxt sinif yoldaşları Qəşəng Mirzəyə baxdığı üçün ona sakit səslə irad tutan Həsənin hərəkəti Mirzənin qüruruna toxunur və hər kəsin içərisində Həsənə sillə vurur. Bu hadisə düz 46 ildən sonra belə Mirzəni rahat buraxmır və 60 yaşında Vətənə dönür, bacısına "ölməyə gəlmişəm" deyir, amma həm də üzrxahlıq etmək üçün Həsəni axtarır. Sən demə, həmin sillədən sonra Qəşəngin meyli Həsənə yönəlib... Yazıçı burada çox mürəkkəb psixoloji məqamı rahat və sadə şəkildə ifadə edir. Sən demə, adi bir sillə kimisə 46 il rahat buraxmadığı halda, başqa birinin həyatının axarını müsbətə doğru dəyişməyə qadirmiş! Uzun zamandan sonra yenidən bu hekayəni oxuyarkən bir daha İsi Məlikzadə istedadına, onun nasir qələminə insan heyranlıq duyur.

Və ya 1985-ci ildə yazılmış **"Bir səbət üzüm"** hekayəsini indi - 35 il uzaqlıqdan oxuyanda məni qəribə bir qüssə bürüdü. Bəlkə bunun bir səbəbi də doğulub-boya

başa çatdığım torpağın adamlarının dərdini ifadə etməsi, oranın havasının, suyunun, insanlarının dəqiq təsvirinin verilməsidir. Həmin hekayəsində yazıçı Qarabağın Aran bölgəsini məharətlə təsvir edir. Dəmirçi Davud Qarabağın Aranında dünyaya göz açıb, burada böyüyüb, burada qocalıb və bu yerin ab-havasına bələddi. Bilir ki, "qəribə təbiəti var Aranın. İllah da ki, yayı lap məəttəl qalmalıdı. Gündüzlər yer-yurd qızmar saca dönür və adam bu sacda qovurğa kimi qovrulur. Amma gecələr otların, yarpaqların üstünə mirvari şeh düşür. Səhərə yaxın torpaq da, daş da buza dönür. Yayda heç haranın səhəri Aran Qarabağın səhərinə çatmaz. Belə aydın, belə sərin, belə ətirli səhər harda var?"

Bu əsərdə Aran Qarabağın səhəri İsi Məlikzadə qələminə xas əyaniliklə, doğma rənglər və cizgilərlə təsvir olunur. Hekayənin sujeti isə çox sadədir. Davud könlünə "Mərəndi" üzümü düşən həyat yoldaşı üçün vaxtilə gedib bağlardan üzüm dərərdi. İndi əvvəlki "yuxarıdan baxanda dalğalı dənizə oxşayan üzüm bağları" yoxdur. Ona görə də bu gecə könlünə "Mərəndi" üzümü düşən həyat yoldaşı üçün o üzümü hardan tapa biləcəyini çox düşünür. Yadına düşür ki, keçmiş kolxoz sədri Əlipaşanın bağında o üzümdən var. Və gizlincə bağa keçib üzümdən bir səbət yığır. Amma nə əvvəlki bağın dad-tamını hiss edir, nə də şanapipiklərin oxumağını eşidir. Həm də bağdan gizlin getməyi özünə yaraşdırmır və Əlipaşanı haraylayır. Onların arasında maraqlı bir dialoq yaranır. Onlar keçmiş bağları xatırlayırlar, bir-bir adlarını çəkirlər: Abbasın bağı, Mirzə Camalın bağı, Məşə Züleyxanın bağı, Möhübbətin bağı, Kələ Ələkbərin bağı... Sonra isə üzümlərin növlərini sadalayırlar. Bu söhbətdə dəmirçi Davud ürəyini boşaldır, Əlipaşaya acığını ifadə edir: "Sən kəsdin kökünü o üzümlüklərin. Onda sən kolxoz sədri idin, bağların çoxu sənin ixtiyarında idi. Uzaq bağların yerində pambıq əkdirdin, yaxın bağlardan da camaata yer verdin. Rayonda torpaq qəhət idimi?" Sonda da belə bir adamın bağından üzüm götürməyi özünə sığışdırmayıb deyir: "Sənin üzümün başına dəysin, bütün bağları güdaza verdin. İndi hanı o bağlar, hanı o şanapipiklər?"

Bu acı təəssüf dolu cümlələr indi - 2019-cu ildə daha da təsirli səslənir və təkcə o möcüzəvi üzüm bağlarını deyil, bütün itirdiklərimizi bizə təkrar xatırladır.
Bütün bu məqamları nəzərə aldıqca istər-istəməz düşünürük ki, İsi Məlikzadə daha 10-15 il yaşasaydı, nəsrimizin üfüqləri onun yeni möhtəşəm əsərlərilə daha da aydınlanardı. Bu cəhətdən, Xalq yazıçısı Elçinin vaxtilə İsi Məlikzadənin **"Quyu"** povestini oxuyandan sonra ona ünvanladığı məktubundakı fikirlər tamamilə dəqiqdir: "Bu məktubun əsas səbəbi Sizin "qazdığınız" "Quyu"dur və lap əvvəldən deyim ki, yaxşı "quyu" qazmısınız, suyunun "mət kimi şipşirin, göz yaşı kimi dumduru" olması barədə bir söz deyə bilmərəm, amma bu quyu bədii psixoloji mənada gələcəyin daha dərin "Quyu"larından xəbər verir, Sizin yaradıcılığınızdakı inkişafı, bədii-estetik kamilliyə doğru keyfiyyət dəyişikliyini əyani şəkildə göstərir". Xalq şairi Ramiz Rövşən də İsi Məlikzadəni böyük saygı və sevgiylə yad edir: "Bu gün 73 yaşından baxanda İsinin cəmi 61 illik ömrü mənə çox qısa, hətta yarımçıq kimi görünsə də, onu təkcə kədərlə yox, həm də təbəssümlə xatırlayıram. Şairlik

Allah vergisidir deyirlər, məncə, bu, yazıçılığa da aiddir. İsi anadan yazıçı doğulanlardan idi. İsi qədər incə yumoru, ironiyası olan adama çətin rast gələrdin. O, hətta heç nə yazmasaydı da, onun söhbətlərini, danışıqlarını yığıb bir kitab eləsəydik, o kitab əllərdən düşməzdi. Heyf ki, o söhbətləri nə özü yazdı, nə də dostları. Amma xoşbəxtlikdən İsi özünün gözəl povestlərini, hekayələrini yazdı. Onun ədəbiyyata gəldiyi 60-cı illər ədəbiyyatımızda, mədəniyyətimizdə bir oyanma, canlanma, təzələnmə dövrü idi. Şeirdə də, nəsrdə də bir-birindən parlaq, yeni-yeni imzalar peyda olur, "xırda-xırda zəlzələlər baş verirdi". O parıltının, gurultunun fonunda İsinin ədəbiyyata gəlişi nisbətən sakit, hay-küysüz oldu. Təxminən 30 ildən sonra - 1990-cı illərin ortalarında ölkəmizdə siyasi təlatümlərin, çaxnaşmaların fonunda İsinin dünyadan getməyi də eləcə sakit, səs-küysüz oldu. Hətta onu sevən oxucuların bir çoxu bəlkə bu itkidən heç xəbər də tutmadı. Amma bu gün İsi Məlikzadənin hər bir üslubçuluqdan, əllaməçilikdən uzaq, həyat kimi təbii və iddiasız, insana sevgi və rəhm dolu əsərlərini oxuyanda bu əsərlərin indi doğma Ağcabədi torpağında uyuyan müəllifinin necə xoşbəxt bir yazıçı taleyinə sahib olduğunu bir daha təsdiqləyirsən".

Sonrakı ədəbi nəsillərin nümayəndələri də İsi Məlikzadə yaradıcılığına yüksək qiymət veriblər. Yazıçı Fəxri Uğurlunun da onun haqqında düşüncələri diqqət çəkir: "Onun təhkiyəsi ənənəvidir, bəzi nəsildaşları, məsələn, Anar, Elçin, Yusif Səmədoğlu kimi fantasik, fantasmaqorik, irreal süjetlərə əl atmayıb, ancaq onun realizmini mahiyyətcə fantastik realizm də adlandırmaq olar, çünki bu realizm səthi deyil, onun əsərlərində obrazların davranışları, situasiyalar, novellaya xas sərt, kəskin dönüşlər insan qəlbinin ən dərin, dəruni tərpənişlərinin işığında təsvir olunur. Adətən, yazıçılar qeyri-real, fantastik süjetlərə, fantasmaqoriyaya obrazların varlığını, situasiyaların kəskinliyini parlaq, aydın şəkildə təsvir eləyə bilmək üçün əl atırlar. İsi Məlikzadənin bu kimi metodlara ehtiyacı olmayıb, o, adi reallığın özünü fantastika səviyyəsinə qaldıra bilib.”

Yazıçının dili, üslubu da doğulub-böyüdüyü Ağcabədi torpağının, Aran Qarabağın stixiyasından yoğrulub. Bu üslub sanki uca dağlardan enib gəlmiş yorğun Kürün aran düzlərində ağır-ağır, fikirli-fikirli, həm də arxayın-arxayın axışından yaranıb.

İsi Məlikzadə qəhrəmanlarını sərhəd situasiyasında - ya o, ya bu vəziyyətində saxlamağı sevir. Onların əsəblərini gərginliyin pik həddinə qədər gərir, sanki obrazı sınayır, onun bəlli situasiyada özünü necə aparacağını bilmək istəyir - eynən ata övladını alışmadığı bir işə buyurub, yaxud tanımadığı bir mühitə salıb onun özünü nə cür aparacağını bilmək istədiyi kimi. Sonra isə eynən bir ata şəfqətiylə əl atıb obrazı düşdüyü "zibillikdən" çıxarır, onu təbəssümlə yenidən adi, dinc həyatın axarına qaytarır. Bu baxımdan onu tragikomik situasiyaların ustası da saymaq olar. Sələfi Əbdürrəhim bəylə bu məsələdə çox səsləşir".

“Mən bu kitabın hazırlanması prosesində fərqli duyğular keçirdim. Təkcə gözəl yazıçımız İsi Məlikzadəni xatırlamadım, həm də keçən illərə, zamana, dövrə

qayıtdım, hüzn və kədərlə ötən onillərə boylandım. İşin ən xoş və sevindirici tərəfi isə görkəmli yazıçımız İsi Məlikzadə yaradıcılığı ilə ilk dəfə tanış olacaq oxucuların keçirəcəkləri gözəl hissləri öncədən təsəvvür etməyim idi."

AYB-nin katibi Rəşad Məcid

Dostlarım məni deyib-gülən, zarafatcıl adam hesab eləyirlər. Amma dərd çəkirəm. Bir nadan sözündən, bir dost biganəliyindən günlərlə özümə gələ bilmirəm.

- …Mən yalnız masa stolumun arxasına keçəndə özümü dünyanın ən güclü, ən qüdrətli adamı hesab edirəm. Fikirlərimlə baş-başa qalanda güclüyəm mən...

İsi Məlikzadə

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

<u>**Kitabları**</u>

Seçilmiş əsərləri : Povestlər, hekayələr. - Təkrar nəşr. - Bakı : Şərq-Qərb, 2005. - 336 s.

Seçmə hekayələr. - Bakı : Altun Kitab, 2019. - 240 s.

***Kiril əlifbası ilə***

Dədə palıd : Povestlər. - Bakı : Yazıçı, 1984. - 413, [1] s.

Günəşli payız : Povest və hekayələr. - Bakı : Yazıçı, 1982. - 154, [1] s.

Həsrətin sonu : Hekayələr. - Bakı : Azərnəşr, 1964. - 44 s.

Kövrək qanadlar : Povestlər. - Bakı : Gənclik, 1973. - 235 s.

Şehli çəmənlərin işığı : hekayələr. - Bakı : Yazıçı, 1991. - 304 s.

Yaşıl gecə : Roman və povestlər. - Bakı : Yazıçı, 1979. - 306 s.

<u>**Haqqında kitablarda**</u>

**İsmayılov Y.** İsi Məlikzadə - söz sərrafı, nəsr ustası. - Bakı : Elm, 2007. - 204 s.

<u>**Əsərləri dövri mətbuatda**</u>

Duz : hekayə // Xəzər. - 2021. - № 2. - S. 3-6.

<u>**Haqqında dövri mətbuatda**</u>

**Ağa M.** Qırmızı yağışlar nə zaman yağır : [İsi Məlikzadənin "Qırmızı yağış" romanı haqqında] // Ədəbiyyat qəzeti. - 2017. - 13 may. - № 17. - S. 3.

**Ağabalayeva S.** Kölgə - adam : İsi Məlikzadə - 80 // Azərbaycan. - 2014. - № 5. - S. 126-129.

**Cahangir Ə.** Qatarda keçilən otuz illik yol : İsi Məlikzadənin "Qatarda" hekayələr kitabı haqqında qeydlər // Ədəbiyyat qəzeti. - 2019. - 26 oktyabr. - № 37. - S. 14-15.

**Eminov A.** Atalı yetimlərin bədii mənzərəsi : İsi Məlikzadənin "Dolaşanların Novruz Bayramı" povesti barədə qeydlər // 525-ci qəzet. - 2024. - 14 may. - № 83. - S. 11.

**Fərman N.** Nisgilli gözlərin işığı // Ədəbiyyat qəzeti. - 2024. - 4 may. - № 16. - S. 44.

**Hüseynova Q.** Kövrək qanadların incəqəlbli müəllifi : Yazıçı-dramaturq, ssenarist İsi Məlikzadə haqqında // Mədəniyyət. - 2010. - 30 aprel. - № 27. - S. 13.

**Məcid R.** İndi hanı o bağlar... // 525-ci qəzet. – 2019. – 9 oktyabr. – S. 16-17.

**Paşayev Q.** Nəsrimizdə İsi Məlikzadə nəfəsi // Yada düşdü. - 2017. - № Yanvar-fevral-mart. - S. 14-15.

**Paşazadə Y.** İsi Məlikzadənin ruhuna ehtiram naminə... : Görkəmli yazıçının Ağcabədidəki ocağının onun ev muzeyinə çevrilməsi mədəni ictimaiyyətin, ölkə ədəbiyyatsevərlərinin və rayon sakinlərinin çoxdankı arzusudur // 525-ci qəzet. - 2019. - 6 sentyabr. - № 121. - S. 13.

**Yalçın N.** Əbədi sözə çevrilən ədəbi sima // 525-ci qəzet. - 2024. - 4 may. - № 78. - S. 13.

**Yusifli V.** Altmış bir ilin qonağı : İsi Məlikzadə // Kaspi. - 2013. - 28 sentyabr. - № 177. - S. 17.

**Yusifli V.** Bədii nəsrimizin sönməyən ulduzu // 525-ci qəzet. - 2024. - 3 may. - № 77. - S. 13.

**Yusifli V.** İsi Məlikzadənin yaratdığı söz dünyası yaşayır : İsi Məlikzadə - 80 // Mədəni Həyat . - 2014. - № 5. - S. 48-51.

**Yusifli V.** İsili, İsisiz dünya... : İsi Məlikzadə - 80 // Azərbaycan. - 2014. - № 5. - S. 123-125.

# Həyat nəfəsli nəsr adamı - İsi Məlikzadə

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**